

**Prezident təqaüdçüsü Zakir Bayramlı sadə olduğu qədər də zəngin bir ömür yolu keçib. Erkən yaşlarından məqsədə çatmaq uğrunda göstərdiyi prinsipiallığı, çətinliklərə mərdliklə sinə gərmək bacarığı və aldığı təlim-tərbiyə ilə həyat yolunu düzgün müəyyənləşdirə, istəklərinə qovuşa bilib. Şabranın səfalı guşələrindən olan Sumağava kəndində müəllim ailəsində dünyaya göz açan Zakir Bakı Plan-Uçot Texnikumunu bitirdikdən sonra təyinatla doğma rayonuna qayıdaraq, orada yeni açılan texniki–peşə məktəbində mühasib işləyib. İlk gündən tapşırılan işə məsuliyyətlə yanaşması, peşəsinin incəliklərinə dərindən yiyələnmək üçün səylə çalışması, işgüzarlığı və ictimai fəallığı diqqətdən yayınmayıb, rayon maarif şöbəsinə eyni vəzifəyə irəli çəkilib və 2012-ci ilədək burada çalışıb, 40 il isə həmin təşkilatın baş mühasibi kimi fəaliyyət göstərib.**

# Vətən məhəbbəti, yurd sevgisi

Zakir Bayramlı D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu (indiki Azərbaycan Dövlət İqtisad Universiteti) və Azərbaycan KP MK yanında Marksizm-Leninizm Universitetini fərqlənmə diplomu ilə bitirib. Fəaliyyət göstərdiyi sahədə hər zaman bacarıqlı mütəxəssis kimi tanınıb, xeyirxahlığına, obyektivliyinə və ictimai fəallığına görə kollektivin rəğbətini qazanıb.

İndi ömrünün geridə qalan illərinə boylananda qürurlanır, işlədiyi kollektivlərə, el-obaya vicdan və şərəflə xidmət göstərdiyinə görə fərəh hissi keçirir. Bu barədə söhbət düşəndə isə deyir: "Həyat uzun ömür sürməklə deyil, Vətənə təmənnasız xidmətlə, təmiz əməl və saf məram-məqsədlə insanlara gərəkli olmaqla dəyərləndirilir. Bu keyfiyyətlərin daşıyıcıları həmişə məhəbbətlə xatırlanır, ehtiramla yad edilir, gələcək nəslə əsl vətəndaşlıq və övladlıq nümunəsi kimi təqdim olunur".

Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda gərgin, təhlükəli bir vəziyyət yaşananda, başqa sözlə, tariximizin ən çətin, taleyüklü dövründə minlərlə soydaşı kimi, Zakir Bayramlı da xalqımızın nicatını, xilas yolunu dahi Heydər Əliyevin böyük siyasətə qayıdışında – yenidən hakimiyyət olimpinə yüksəlməsində görürdü: "Müasir tariximizi ümummilli lider Heydər Əliyevsiz təsəvvür etmək qeyri-mümkündür. Vətən təəssübü, xalq sevgisi ulu öndərin amalı, qayəsi olub. Bu böyük şəxsiyyətin keçdiyi mənalı ömür yolu, xalqının yolunda göstərdiyi misilsiz xidmətlər gələcək nəsillər üçün əsl örnəkdir.

Ulu öndərin xalqımız və dövlətçiliyimiz qarşısındakı tarixi xidmətləri bugünkü gəncliyə əsl nümunədir. Ümummilli lider Heydər Əliyev Azərbaycan tarixində müstəqil və suveren dövlətin simvolu, cəsur insan, ən böyük vətəndaş kimi qalıb. Bu gün ölkəmizin əldə etdiyi bütün uğurlar bu böyük şəxsiyyətin adı ilə bağlıdır…

Dahi rəhbərin ən böyük dayağı xalq idi. Ona görə də ən çətin, ağır günlərdə xalqına güvənir, xalqından güc alırdı. Heydər Əliyevin şəxsiyyət kimi ən mühüm keyfiyyəti güclü iradə, qətiyyət, prinsipiallıq və böyük inam sahibi olması idi. Hələ öz sağlığında dünya siyasətçiləri onu zəmanəmizin ən nəhəng siyasət adamı hesab edirdilər.

1993-cü ildə xalqın təkidi ilə hakimiyyətə qayıdan ulu öndərin məqsədyönlü siyasəti və gərgin əməyi sayəsində bu gün ölkəmizdə hüquqi dövlət və demokratik cəmiyyət formalaşıb, Azərbaycan dünya birliyində öz layiqli yerini tutub".

Zakir Bayramlı hələ erkən yaşlarından bədii ədəbiyyata maraq göstərirdi. Bakı Plan-Uçot Texnikumunda təhsil alan dövrdə isə müxtəlif ədəbi dərnəklərə gedir, yaradıcılıq məclislərində ədəbiyyatşünaslıq və dilçiliyə, dünyada baş verən mühüm ədəbi proseslərə dair yeniliklər haqqında məlumatlar alır, görkəmli şairlərin poeziyasını diqqətlə izləyir, "Ədəbiyyat və incəsənət", "Azərbaycan gəncləri", "Abşeron" qəzetlərində, "Ulduz", "Kirpi" jurnallarında və başqa mətbuat orqanlarında vaxtaşırı zəhmət adamları barədə publisist yazılar, müxtəlif mövzularda şeirlər dərc etdirirdi.

Bu gün Şabran rayonunda Zakir müəllimə böyük hörmət və rəğbət hissi ilə yanaşılır, nüfuzlu ziyalı, eyni zamanda, istedadlı şair kimi qəbul edirlər. Onun indiyədək "40 il təhsillə bağlı ömür", "Bir ömür yaşadım", "Min ilə bərabər yüz il", "Günəşdən nur alanlar", "Dünyaya açılan pəncərə", "Arzuları qovuşduran kitab", "İkinci görüş", (Seçilmiş əsərləri, 1-ci cild) kitabları nəşr olunub. Yaşı 70-i ötən el ağsaqqalı bu gün də yazıb-yaratmaqdan yorulmur.

Doğulduğu torpağa, kəndə, el-obaya həsr etdiyi şeirləri səmimiliyi və təbiiliyi ilə diqqəti çəkir. "Şabranın tərənnümü"ndə Azərbaycanın bu qədim yurd yerinin tarixən keçdiyi yolun mənzərəsi canlandırılır.

Zakir müəllim söhbətlərində də tez-tez doğma rayonunun tarixindən bəhs edir. Deyir ki, şərəfli, zəngin tarixi olan qədim Şabranı Azərbaycanın siyasi və mədəni həyatından kənarda təsəvvür etmək mümkün deyil. Aparılan arxeoloji qazıntılara əsasən burada hələ eramızın əvvəllərində yaşayış məskəni olduğu müəyyən edilib. Tarixi mənbələrdə Şabranın Sasanilər sülaləsindən olan Şah Xosrov Ənuşirəvan tərəfindən qala-şəhər kimi tikdirildiyi və burada qaynar şəhər həyatının IX–XV əsrlərə təsadüf etdiyi bildirilib.

Bu ərazinin əsas sakinlərinin qədim türk tayfalarından sabirlər olduğunun daha çox güman edildiyini vurğulayan Z.Bayramlı "Şabran" sözünün də həmin türk tayfalarının adlarından formalaşdığını (sapotren, sabur, sabir, şaburan, şavaran) düşünür.

Tarixən böyük savaşların meydanına çevrilən Şabran XIII əsrin ortalarında monqolların hücumu nəticəsində dağıdılıb. Sonrakı dövrlərdə, necə deyərlər, özünə gəlsə də, Səfəvi–Osmanlı müharibələri zamanı yenidən dağıntılara məruz qalıb.

XVIII əsrdən etibarən Şabran tamamilə tənəzzülə uğrayıb və bugünümüzə qədim şəhərin xarabalıqları gəlib çıxıb. Hazırda bu torpaqda yeni şəhər, yeni Şabran inkişaf edir, böyüyür. Amma qədim şəhərin xarabalıqları arasında tariximizin bir çox qatları, əfsanə və rəvayətlər dolu olaylar qalıb. Onları öyrənib üzə çıxarmaq, həm də mədəni irsimizin bir sıra maraqlı səhifələrinə işıq salmaq deməkdir.

Zakir Bayramlı yaradıcılığında təkcə Şabranı deyil, doğma Vətəni–Azərbaycanı da böyük məhəbbətlə tərənnüm edir. "Kiçik Azərbaycan Şabrandırsa, böyük, müqəddəs Azərbaycan öz sərhədlərindən də kənarda tanınan, dünyanı dolaşan Vətəndir. Bu Vətənin hər daşında, hər qayasında tariximizin bir parçası oxunur, xalqımızın qədim tarixi, mədəniyyəti görünür", – deyir. "Ey Vətən" şeiri də elə bu fikri ifadə edir:

***Ömrümün mənası, dünya gözəli,***
***Sənsən həyatımın ilki, əzəli.***
***Sənə həsr edirəm şeiri, qəzəli,***
***Hüsnün, camalındır məni ram edən,***
***Ey Vətən!***

Şairin dünya, həyat--ölüm, insan və zamanla bağlı düşüncələri ifadə edilən şeirləri də maraqla oxunur. Onun qənaətinə görə, dünya əbədi, insan fani olsa da, heç kəs bu dünyadan köç etmək istəmir, həyatın bütün sınaqları qarşısında yaşamağın belə həmişə gözəl olduğunu dərindən dərk edir.

Zakir Bayramlının torpaqlarımızın işğalından, qaçqın və köçkünlərimizin acı taleyindən bəhs edən şeirlərini oxuyanda qürbətdə göynəyə-göynəyə yaşayan, yuxusu ərşə çəkilən, ürəyində Qarabağ boyda dərd gəzdirən soydaşlarımızın ürək çırpıntıları aydın eşidilir:

***Mən qəlbimi Qarabağda qoymuşam,***
***Vətənimdə qaçqın, sürgün olmuşam.***
***Həsrət dolu günlərimdən doymuşam,***
***Xanın kəndi bir gün yada salınsın,***
***Şuşa üçün zəfər marşı çalınsın.***

Zakir müəllim torpaqlarımızın azad olunacağına, zəfər marşının çalınacağına, didərginlərin doğma yurd-yuvalarına qayıdacaqlarına öz varlığı kimi inanır. Bu inamı onda 2016-cı ilin Aprel döyüşləri kimi tarixə düşən hadisələri, Qızılqayanın fəthi ilə Azərbaycan Ordusunun qalibiyyət yürüşü qətiləşdirib.

Zakir Bayramlı bu barədə deyir: – "Aprel zəfəri ilə Silahlı Qüvvələrimiz bir daha xalqımızın nicat yerinə, qürur mənbəyinə çevrildi. Bu zəfər yurddaşlarımızın sabaha ümidini daha da artırdı, xalqımızda Böyük Qələbənin çox da uzaqda olmadığına dərin inam yaratdı. Bu irəliləyiş məcburi köçkünlərə dədə-baba torpaqlarına dönmək sevinci, Cocuq Mərcanlı bəxtəvərliyi yaşatdı...".

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2019.- 6 oktyabr.- S.7.